**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№370/3** **25 noyabr 2024-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının İctimai Nəzarət Komitəsinin yaradılması və tərkibinin təsdiq edilməsi barədə**

Azərbaycan Respublikasında auditor xidmətinin dövlət tənzimlənməsinin təşkilinə, auditor xidmətinin inkişafına və təkmilləşdirilməsinə, dövlətin, təsərrüfat subyektlərinin və auditorların mənafelərinin müdafiəsinə, auditin aktual məsələlərinin və problemlərinin həllinə, habelə Palatanın struktur bölmələrinin və Palatanın Şurası yanında komitələrin və komissiyanın fəaliyyətlərində yaranan çatışmazlıqların həllində onlara kömək göstərilməsi məqsədilə hazırlanmış Azərbaycan Respublikası Auditorlar Palatasının İctimai Nəzarət Komitəsinin Əsasnaməsinin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının İctimai Nəzarət Komitəsinin Əsasnaməsi təsdiq edilsin (əlavə olunur).

2. Auditorlar Palatasının İctimai Nəzarət Komitəsinin tərkibi aşağıda göstərilən üzvlərdən ibarət olmaqla təsdiq edilsin:

| **İctimai Nəzarət Komitəsinin üzvləri** | | |
|---|---|---|
| 1. | Həsənov Cəfər İsmayıl oğlu – Sədr | “Active Consulting CN” MMC-nin auditoru |
| 2. | Əliyev Rüfət Yaqub oğlu – Sədr müavini | “A Audit and Consulting” MMC-nin direktor-auditoru |
| 3. | Abbaslı Namiq Rasim oğlu – üzv | “ANR Audit” MMC-nin direktor-auditoru |
| 4. | Hacı-Əzizov İlham İsfəndiyar oğlu – üzv | Sərbəst auditor |
| 5. | Hüseynov Aydın Həsən oğlu – üzv | Sərbəst auditor |
| 6. | Təqdimat əsasında – üzv | Azərbaycan Respublikası sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası |

3. Auditorlar Palatasının İctimai Nəzarət Komitəsinə tapşırılsın ki:

3.1. bir ay müddətində Komitənin 2025-ci il üzrə iş planının layihəsini hazırlayıb təsdiq edilməsi üçün təqdim etsinlər;

3.2. Komitənin Əsasnaməsindən irəli gələn vəzifələrin vaxtında və keyfiyyətlə icrasını təmin etsinlər.

4. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

5. Bu qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Şuranın sədri** **Vahid Novruzov**